

**İndi Balakəni tanımaq olmur. Aparılan çoxsaylı quruculuq işləri respublikamızın onsuz da təbii gözəlliyi ilə seçilən bu dilbər guşəsini daha da baxımlı edib, hüsnünə əlavə rəng qatıb. Bütün bunlar rayonun mədəni-maarif işçilərini ürəkdən çalışmağa, vəzifələrinə yaradıcılıqla yanaşmağa sövq edir.**

# Rəngarəng tədbirlər

**Mədəniyyət və turizm şöbəsinin müdiri Ruqiyyət Seyidova**

Onların işinə nə dərəcədə bağlı olduğunu həyata keçirilən tədbirlərin adından və rəngarəngliyindən də duymaq çətin deyil: "Arzu təzə, əməl təzə, il təzə", "Şənbə gecəsinə gedən yol", "Günahsız qurbanlar", "Dilimiz milli varlığımızdır", "Kim deyir ki, yanıb-yanıb söndün sən", "Zərif çiçəklər", "Azərbaycan tarixini öyrənək" və s. Hesabat dövrü ərzində rayon və kəndlərdə bu adda ədəbi-bədii gecələr, kompozisiyalar, dəyirmi masalar və sərgilər təşkil edilmişdir.

Keçirilən el şənliklərində milli mətbəximizi əks etdirən süfrələr açılmış, pəhləvanlar öz məharətlərini göstərmişlər. Tədbirlərdə etnoqrafik və məişət əşyalarından ibarət sərgilər təşkil edilmiş, bu barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Milli teatr günü münasibətilə Katex kənd mədəniyyət evi C.Cabbarlının "Sevil" pyesini tamaşaya qoymuşdur.

MKS-də M.Ə.Rəsulzadənin 125, C.Məmmədquluzadənin 140, M.Hüseynin 100, C.Cabbarlının 110, Ə.Vahidin 125 illiyi ilə əlaqədar sərgilər təşkil edilmiş, ədiblərin əsərlərinin müzakirəsi keçirilmiş, kartotekalar tərtib olunmuşdur.

Təbii ki, bu və buna oxşar tədbirlər yalnız mərkəzdə deyil, həm də ən ucqar kəndlərdə belə yüksək səviyyədə təşkil edilir. Bu mənada 6 saylı Qullar, 48 saylı Tülü, 9 saylı Hənifə, 34 saylı Mahamalar kənd kitabxanalarının fəaliyyəti razılıq doğurur. Bu kitabxanalar öz işlərinin gənclərlə birgə qurur, vətənpərvərlik mövzularında tədbirlərin təşkilinə xüsusi önəm verir. Uşaqlar kitabxana işini günün tələbləri səviyyəsində qurmaq məqsədilə müxtəlif metod və formalara müraciət edirlər.

## Balakən

Ötən müddət ərzində mədəni-maarif işi müəssisələrinin təmiri, maddi-texniki bazasının möhkəmləndirilməsi də daim diqqətdə saxlanılmışdır. Belə ki, Kortala kənd kitabxanası əsaslı təmir edilmiş, 18 saylı İtitala kənd kitabxanası yeni binaya köçürülmüşdür.

Fəaliyyəti yüksək səviyyədə təşkil olunan müəssisələr arasında Heydər Əliyev və rayon tarix-diyarşünaslıq muzeyləri xüsusilə seçilir. Burada mütəmadi olaraq tarixi-əlamətdar günlərlə bağlı mədəni-kütləvi və respublika əhəmiyyətli tədbirlər keçirilir, muzeyin yeni eksponatlarla zənginləşdirilməsi qayğısına qalınır.

Rayonun klub müəssisələri və incəsənət məktəbinin fəaliyyətində də bir dönüş hiss edilir. Bunun nəticəsi kimi uşaq xor kollektivinin Respublika baxış-müsabiqəsində uğurlu çıxışını və fəxri fərmanla təltif edildiyini göstərmək yerinə düşərdi.

Etiraf etmək lazımdır ki, Balakəndəki bütün uğurlar şöbə müdiri Ruqiyyət Seyidovanın təyinatından sonrakı dövrə təsadüf edir. İşinə məsuliyyətlə yanaşan Ruqiyyət xanım söhbət zamanı hələ əsl nailiyyətin qarşıda olduğunu söylədi:

- Fəaliyyətimiz haqqında televiziya kanallarında rəngarəng verilişlər yayımlanmış, qəzet və jurnallarda müxtəlif məqalələr dərc olunmuşdur. Bütün bunlar bizi daha yaxşı çalışmağa, turizmin inkşafı üçün zamanın tələbinə uyğun layihələr həyata keçirməyə, quruculuq işlərinə vüsət verməyə ruhlandırır. Bir də axı bölgədə mədəniyyətin səviyyəsini yüksəltmək bizim vəzifə borcumuzdur.

**● B. ZAYRALIQIZI**